Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Yenilənmişdir: yanvar 2025

# Avropa İttifaqının „Göy kartı“ - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Avropa İttifaqının „Göy Kartı“ ilə ali təhsilli, “tertiary education” təhsil sistemi çərçivəsində ixtisaslaşmış və İT-mütəxəssisi olan xarici ölkələrin vətəndaşları Almaniyada öz ixtisaslarına uyğun müəyyən minimal əmək haqqı əsasında muzdlu işlə məşğul ola bilərlər. Vergiyə cəlb edilən əmək haqqı (brutto) 4.025 avro/ayda yaxud 48.300 avro/ildə təşkil etməlidir. Ehtiyac duyulan peşələr üzrə mütəxəssislər (məsələn, həkimlər, İT-mütəxəssisləri, alimlər, riyaziyyatçı və mühəndislər, bu peşələrin tam siyahısını buradan əldə edin: https://www.make-it-in-germany.com/pdf-engpassberufe-de) və həmçinin Avropa İttifaqının „Göy Kartı“ üçün müraciət etməzdən əvvəl üç ildən çox olmayan ali təhsil almış mütəxəssislər üçün minimum əmək haqqı 3.646,65 avro/ayda yaxud 43.759,80 avro/ildə təşkil etməlidir.

Əgər Sizin tələb olunan ali təhsiliniz varsa, lakin Sizin minimum gəliriniz tələblərə cavab vermirsə,
bu halda Siz „Muzdlu əmək fəaliyyətinə“ dair məlumat vərəqəmiz ilə tanış ola bilərsiniz.

Avropa İttifaqının „Göy Kart“ı üçün milli viza almaqdan ötrü bütün lazımi sənədləri **Almaniyanın Federal Xarici İşlər Nazirliyinin internet portalına** göndərməklə onlayn şəkildə müraciət etmək olar. Səfirlik onlayn-prosesi çərçivəsində kənar viza xidməti olan „Visametric“ şirkəti ilə işləyir. “Visametric” şirkəti sənədlərinizin tamlığını onlayn şəkildə yoxlayır. Bütün sənədlər hazır olduqda, Sizin üçün ən yaxın viza dəstəyi üçün xidmət şirkətində (VXŞ) görüş təyin olunacaqdır. Orada barmaq iziniz alınacaq və Siz viza rüsumunu da ödəyəcəksiniz. Bundan sonra ərizəniz Almaniya Səfirliyinə göndəriləcək. Viza müraciətinizlə bağlı qərar viza xidməti şirkəti tərəfindən deyil, səfirlik tərəfindən verilir. İstənilən vaxt internet portal vasitəsilə ərizənizin işlənmə mərhələsini izləyə bilərsiniz.
İnternat portal vasitəsi ilə müraciət etmək üçün bu keçiddən istifadə edə bilərsiniz: https://digital.diplo.de/blaue-karte

Sənədlərə baxılma müddəti orta hesabla 1-2 həftə davam edir.

a) Əgər Siz əvvəllər mövsümi məşğulluq məqsədinə xidmət etməyən yaşayış icazəsi, Aİ-nın „Göy Kartı“, „İCT (intra-corporate transfer)-Kartı“, mobil „İCT-Kartı“, daimi yaşayış icazəsi, Aİ-nın daimi yaşayış icazəsi, deportasiyadan əvvəl müvəqqəti qalma icazəsi (Duldung) və ya Almaniyada sığınacaq üçün qərardan əvvəl müvəqqəti yaşamaq icazəsi əsasında ölkədə qalmısınızsa və ya ölkədə qalmağınızı dayandırmaq üçün Sizə qarşı tədbirlər görülübsə VƏ

b) ayda 3.646,65 avrodan çox, lakin 4.025 avrodan az gəliri olan ehtiyac duyulan peşələr üzrə mütəxəssislər və Avropa İttifaqının „Göy Kartı“ üçün müraciət etməzdən əvvəl təhsilinin bitməsindən üç ildən çox keçməyən ali təhsil almış gənc mütəxəssislər üçün

sənədlərə baxılma müddəti 2-8 həftədir.

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir müraciət üçün aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Xarici pasport ən az 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin 1ədəd surəti) |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan " Azərbaycanda yaşamaq icazəsi " sənədi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax) |
| ☐ "Məşğuliyyət münasibətlərinə dair bəyanat"a dair doldurulumuş anket (işəgötürən tərəfindən dildurulmalıdır əsli və 1 ədəd surəti) |
| ☐ "Yaşamaq haqqında Qanun"un mad.18, bənd 2, abzas 4a (§ 18 Abs. 2 Nr. 4a AufenthG) uyğun olaraq imzalanmış təlimat - dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi |
| ☐ "Yaşamaq haqqında Qanun"un mad.82, bənd 1, cümlə 6 (§ 82 Abs. 1 Satz 6 AufenntG) uyğun olaraq imzalanmış "İşə götürənin və əmək münasibətlərinin dəyişilməsi barədə məlumat vermə öhdəliyi " |
| ☐ Səyahət tibbi sığorta (Şengen dövlətləri üçün 90 gün ərzində etibarlı və sığorta ödənişinin minimal məbləği 30 000 avro olmalıdır) |

| **Ali təhsilli mütəxəssislər üçün Göy kart (Aİ)** |
|---|
| ☐ Almaniyanın müvafiq idarəsi tərəfindən tanınmış ali məktəb diplomu (əsasən diploma əlavəni təqdim etməyə ehtiyac yoxdur) (*əsli + 1 ədəd surəti*): Sizin xaricdə aldığınız ali təhsilinizin tanınıb-tanınmamasını və ekvivalentliyini öyrənmək üçün „Anabin" məlumat bankından istifadə edə bilərsiniz |
| ☐ Əgər Sizin ali təhsiliniz „entspricht" kimi və ali məktəbiniz H+ kimi dəyərləndirilibsə: bu halda məlumat bankının məlumatını çap edin; xahiş olunur, **hər iki** məlumatın təsdiqini əlavə edin **yaxud** |
| ☐ Əgər Siz öz ali təhsilinizin və ya təhsil ocağınızın adını tapa bilmirsinizsə: bu halda diplomunuzu ZAB (Zentralstelle für ausländisches Bildungswesen) tərəfindən dəyərləndirilməsi üçün həmin idarəyə göndərin **yaxud** |
| ☐ Əgər Sizin təhsil qurumunuz H+/- kimi dəyərləndirilib və/və ya Anabin-də qeyd olunmayıbsa: Bu halda diplomunuz ZAB (Zentralstelle für ausländisches Bildungswesen) tərəfindən dəyərləndirilməlidir. |

| **"Tertiary education " təhsil sistemi çərçivəsində ixtisaslaşmış mütəxəssislər üçün Göy Kart (Aİ)** |
|---|
| ☐ „Tertiary education" təhsilinizi təsdiq edən sənədi təqdim edin *(əsli və 1 ədəd surəti)*. Təhsil T"əhsilin Beynəlxalq Standart Təsnifatı"nın (ISCED) 6-cı səviyyəsinin "65" alt qrupuna aid olmalıdır. Bu alt qrup üzrə təhsil ən azı üç il davam edir. Ətraflı məlumat: ISCED 2011 |

| **İT-mütəxəssislər üçün Göy Kart (Aİ)** |
|---|
| ☐ Siz informasiya və kommunikasiya texnologiyaları sahəsində ən az üç illik peşə təcrübənizin olduğunu sübut etməlisiniz (məsələn, əmək kitabçasını alman dilində notarial təsdiq və tərcümə edilmiş qaydada təqdim etməklə – *əsli və 1 ədəd surəti*). Praktik iş təcrübəsi son yeddi il ərzində əldə edilmiş olmalı və ali təhsil və ya ekvivalent ali təhsil ixtisasına uyğun olmalıdır. |

| **Tənzimlənən peşələr üçün, məsələn, həkimlər, mühəndislər, dövlət məktəb müəllimləri, əczaçılar və hüquqşünaslar** |
|---|
| ☐ Diplomların tanınması üçün cavabdeh idarə tərəfindən peşə fəaliyyətinə icazə<br>**yaxud** |
| ☐ Peşə fəaliyyəti ilə məşğuliyyətə zəmanət / həkim fəaliyyəti üçün aprobasiya<br><br>Sizin yiyələndiyiniz peşənizin tənzimlənən peşələr qrupuna aid olub-olmadığını buradan öyrənə bilərsiniz. |

Aİ-nin Göy Kartı ilə bağlı daha ətraflı məlumatı Siz Almaniyanın Migrasiya və Qaçqınlar üzrə İdarənin (BAMF)internet saytında www.bamf.de və ya mütəxəssislər portalından www.make-it-in-germany.com əldə edə bilərsiniz.

**Burada adı çəkilməyən sənədlərin ayrı-ayrı hallarda viza müraciəti proseduru zamanı əlavə olaraq təqdim edilməsi tələb edilə bilər.**